

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 205 (23.367)

*31 oktyabr 2019-cu il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 30-da MDB Müdafiə Nazirləri Şurasının iclasının iştirakçılarını qəbul edib.

Prezident İlham Əliyev deyib:

– Əziz qonaqlar, sizi salamlayıram. Çox şadam ki, Birlik ölkələrinin Müdafiə Nazirləri Şurasının növbəti iclası Bakıda keçirilir. Bu tədbir özlüyündə çox böyük əhəmiyyət kəsb edir. Bu, ölkələrimizi daha sıx birləşdirir, ikitərəfli gündəliyə dair söhbət etmək üçün yaxşı imkan yaradır. Bildiyiniz kimi, bu yaxınlarda Aşqabadda dövlət başçılarının Zirvə Görüşü çox uğurlu keçdi. MDB üzvü olan digər ölkələr kimi, Azərbaycan da bu təşkilatda iştiraka böyük əhəmiyyət verir. Bir sıra məsələlərə dair bizim konstruktiv mövqeyimiz də MDB çərçivəsində qarşılıqlı fəaliyyətin daha da möhkəmlənməsinə töhfə verir. Əlbəttə, xüsusən müasir mərhələdə bizim regionda mövcud olan və yarana biləcək təhlükələr nəzərə alınmaqla hərbi sahədə əməkdaşlıq çox böyük əhəmiyyət kəsb edir.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 30-da Avropa İttifaqının Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi Toivo Klaarın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə dövlətimizin başçısı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın mövqeyini bir daha çatdıraraq, münaqişənin yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməli olduğunu vurğulayıb.



## Naxçıvanda Türkiyə Cümhuriyyətinin 96-cı ildönümü münasibətilə tədbir keçirilib





Oktyabrın 29-da Türkiyə Cümhuriyyətinin yaradılmasının 96-cı ildönümü münasibətilə Türkiyə Respublikasının Naxçıvandakı Baş Konsulluğu tərəfindən rəsmi qəbul təşkil edilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov rəsmi qəbulda iştirak edib.

Tədbirdə şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan və Türkiyə respublikalarının Dövlət himnləri səsləndirilib.

Türkiyənin Naxçıvandakı Baş konsulu Məhmət Emin Kiraz Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın Cümhuriyyətin 96-cı ildönümü münasibətilə Türkiyənin xarici ölkələrdəki diplomatik nümayəndəliklərinə göndərdiyi məktubu oxumuşdur. Sonra Baş konsul çıxış edərək ölkəsinin cümhuriyyət bayramının Naxçıvanda qeyd olunmasının əhəmiyyətini qeyd etmişdir. Azərbaycanla əlaqələrin inkişafını, o cümlədən ikitərəfli münasibətlərdə Naxçıvan Muxtar Respublikasının rolunu diqqətə çatdıran Baş konsul əməkdaşlığın ilbəil genişləndiyini bildirmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Türkiyənin müstəqillik bayramı – Cümhuriyyət elan edilməsinin 96-cı ildönümü münasibətilə tədbir iştirakçılarını və qardaş Türkiyə xalqını təbrik edərək demişdir: Türkiyə xalqının qəhrəmanlıq və vətənpərvərlik əzmi nəticəsində qazanılmış dövlət müstəqilliyi ötən 96 ildə daha da möhkəmləndirilmişdir. Böyük öndər Mustafa Kamal Atatürkün ideyalarına sədaqət Türkiyə Cümhuriyyətini dünyanın iqtisadi cəhətdən inkişaf etmiş, demokratik vətəndaş cəmiyyətinin bərqərar olunduğu dünyəvi və hüquqi dövlətinə çevirmişdir. Bir millətin iki dövləti olaraq ölkələrimiz arasındakı tarixi və milli bağlılıq, inam və etimad dostluq və qardaşlığımızı daha da möhkəmləndirir. Siyasi və iqtisadi əlaqələrimiz, strateji tərəfdaşlığımız Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyə arasındakı münasibətlərdə də özünü göstərir. İqtisadi-ticarət, nəqliyyat, təhsil, səhiyyə, turizm, mədəniyyət, ordu quruculuğu və digər sahələrdəki əməkdaşlıq məmnunluq doğurur.

Ali Məclisin Sədri müstəqillik bayramı münasibətilə qardaş Türkiyə xalqını bir daha təbrik etmiş, çıxışını Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin fikri ilə tamamlamışdır: ***“Bizim əlaqələrimizin təməlində xalqlarımızın birliyi, qardaşlığıdır. Bu, əsas məsələdir və biz dostluğumuzun, qardaşlığımızın möhtəşəm binasını bu təməl üzərində inşa edirik”.***

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Şahmatçılarımız Azərbaycan Şahmat Federasiyasının vitse-prezidentinin rəhbərliyi ilə Dünya Şahmat Olimpiadasında iştirak edirlər



***Oktyabr 29-da Türkiyənin Çorum şəhərində 16 yaşa qədər şahmatçıların Dünya Şahmat Olimpiadasına start verilib.***

Şahmatçılarımız Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti, Naxçıvan Şahmat Federasiyasının sədri Seymur Talıbovun rəhbərliyi ilə həmin olimpiadada iştirak edirlər. Ölkəmiz bu nüfuzlu yarışda iki komanda – “Azərbaycan” və “Azərbaycan-Naxçıvan” ilə təmsil olunur. “Azərbaycan” komandası Monqolustan, “Azərbaycan-Naxçıvan” isə Qazaxıstan şahmatçıları ilə mübarizə aparırlar.

Qeyd edək ki, Azərbaycanın birinci komandasında Məhəmməd Muradlı, Aydın Süleymanlı, Əhməd Əhmədzadə, Vüqar Manafov və Gövhər Beydullayeva iştirak edirlər. “Azərbaycan-Naxçıvan” komandasında isə Xəzər Babazadə, Sadiq Məmmədov, Sadiq Qarayev, Ərturan İsmayılov və Nəsrin Babayeva mübarizə aparırlar.

Olimpiadanın açılışından əvvəl Türkiyənin Cümhuriyyət bayramı ilə əlaqədar tədbir keçirilib. Tədbirdə Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti, Naxçıvan Şahmat Federasiyasının sədri Seymur Talıbov iştirak edib, Çorum valisi Mustafa Çifçi ilə görüşüb. Vali Seymur Talıbova



xatirə hədiyyəsi təqdim edib.

Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti daha sonra 16 yaşa qədər şahmatçıların Dünya Şahmat Olimpiadasının



açılış mərasimində iştirak edib. Açılış mərasimində ilk gedişin edilməsindən sonra 38 ölkənin 48 komandası mübarizəyə başlayıb. Olimpiada 9 turdan ibarət olacaq, komanda qalib gəldiyi təqdirdə 2 xal, heç-heçə olduqda isə 1 xal qazanacaq.

Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti, Naxçıvan Şahmat Federasiyasının sədri Seymur Talıbov milli komandamızda mübarizə aparan şahmatçılarla görüşüb, onlara uğurlar arzulayıb, hədiyyələr təqdim edib.

Qeyd edək ki, olimpiadaya noyabr ayının 6-da yekun vurulacaq.

**Ceyhun MƏMMƏDOV**

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında” 2019-cu il 3 aprel tarixli Sərəncamının icrası istiqamətində həyata keçirilən tədbirlər çərçivəsində hazırlanan “startup.nakhchivan.az” internet portalının təqdimatı olub.*

# “Startup.nakhchivan.az” internet portalının təqdimatı olub



“Naxçıvan” Universitetində keçirilən tədbirdə əvvəlcə Naxçıvan televiziyasının hazırladığı “Startap layihələri və innovativ inkişaf” filmi nümayiş etdirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Surə Seyid tədbirdəki çıxışında muxtar respublikamızda elm və təhsilin yeni standartlar çərçivəsində innovativ inkişafına yaradılan şəraitdən danışaraq bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında” 2015-ci il 27 iyul tarixli Sərəncamı, ümumilikdə, təhsil sahəsində yeni islahatların tətbiqinin əsasını qoyub. Bu sərəncamla hami təşkilatlar və təhsil müəssisələri arasında əlaqə genişlənib, qarşılıqlı əməkdaşlıq insan kapitalının inkişafına, iqtisadi cəhətdən dayanıqlı əmək bazarının yaradılmasına, təhsilverənlə işəgötürən arasında tələblərin formalaşmasına xidmət edib, gənclər tərəfindən irəli sürüləcək yeni startaplar üçün münbit zəmin hazırlayıb.

“Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2019-cu il 3 aprel tarixli Sərəncamı ilə muxtar respublikanın təhsil tarixində yeni bir dövrün başlanğıcı qoyulub. Həmin sərəncamla, ümumilikdə, 109 ixtisas və 1 lisey 36 təşkilata hamiliyə verilib. Sərəncamda “İdeyadan başlanğıca” devizi altında innovasiyaya və dayanıqlı inkişafa əsaslanan, yaradıcı düşüncəni və elmi-texniki tərəqqini əks etdirən yeni layihələrin – startapların həyata keçirilməsi nəzərdə tutulub”, – deyən Surə Seyid vurğulayıb ki, bu tarixi qərar kadr potensialının inkişafı ilə yanaşı, gənclərin istedadlarının üzə çıxarılması, ideyaların reallaşması və startap təşəbbüslərinin dəstəklənməsi sahəsində mühüm addımdır.

Diqqətə çatdırılıb ki, “Startap Naxçıvan” hərəkatı muxtar respublikada investisiya mühitini yaxşılaşdırmaqla istedadlı gənclərin üzə çıxarılmasına, onların nailiyyətlərinin yeni sistemin tələblərinə uyğun qiymətləndirilməsinə, yaradıcı düşüncə və inkişafa xidmət edən ən yaxşı layihələrin aşkarlanmasına, innovativ ideyaların uğurlu biznes sahəsinə çevrilməsinə dəstək məqsədi daşıyır. İnnovativ təhsil mühiti müəllimlərə də öz üzərində işləməklə peşəkarlıqlarını artırmağa və sağlam rəqabət mühitinin formalaşmasına şərait yaradır.

Bildirilib ki, ötən dövr ərzində ali və orta ixtisas təhsili müəssisələrində layihələrin hazırlanmasına dəstək verən İnnovasiya laboratoriyaları yaradılıb, hami təşkilatlarla birgə maarifləndirici tədbirlər həyata keçirilib, ekspert qrupları formalaşdırılıb, onların elektron məlumat bazası yaradılıb. Bununla yanaşı, startapla bağlı maarifləndirici bukletlər, tədris vəsaiti hazırlanıb. Startap fəaliyyətinə nəzarət mexanizmini asanlaşdıran internet portalı da yaradılıb.

Vurğulanıb ki, “Startap Naxçıvan” hərəkatı gələcəyə hesablanmış dövlət proqramı olmaqla, kadr hazırlığı sistemində akademik hazırlığın təcrübə ilə əlaqəsinin vəhdətinə və kadrların gələcək karyera imkanlarına ən etibarlı təminatdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri əminliyini bildirib ki, sərəncamdan irəli gələn vəzifələrin icrası və “*startup.nakhchivan.az*” portalının istifadəyə verilməsi muxtar respublikada innovativ inkişaf sahəsində koordinasiyanın təmin edilməsində, gənclərin startap layihələrinin dəstəklənməsində və yeni biznes sahələrinin



formalaşmasında əhəmiyyətli rol oynayacaqdır.

Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar naziri Rövşən Məmmədov çıxışında qeyd edib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin hələ 2014-cü il 20 iyun tarixdə imzaladığı “Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında” Sərəncam ilə muxtar respublikada elektron təhsil infrastrukturunun inkişafı və təhsildə müasir texnologiyaların tətbiqi yeni müstəviyə keçirilib. Muzeylərlə təhsil müəssisələri arasında interaktiv əlaqələri təmin edən müasir elektron təhsil sistemi istifadəyə verilib. Hazırda muxtar respublika üzrə 236 elm və təhsil müəssisəsi, 17 muzey “İnteraktiv təhsil sistemi”nə qoşulub, Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində distant təhsil sistemi qurulub.

Diqqətə çatdırılıb ki, Naxçıvan Dövlət və “Naxçıvan” universitetlərinin bütün korpuslarına və tələbə yataqxanalarına optik kabel xətləri çəkilib, daxili kompüter şəbəkələri qurulub. Hazırda Naxçıvan Dövlət Universitetində Distant Təhsil Mərkəzi fəaliyyət göstərir. Naxçıvan Müəllimlər İnstitutu, Naxçıvan Dövlət Texniki və Tibb kolleclərində də müvafiq infrastrukturlar yaradılıb.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 3 aprel tarixli Sərəncamı artıq başlanmış işlərin konkret nəticələrə çevrilməsinə əhəmiyyətli töhfə olub. Sərəncamın icrası ilə əlaqədar nazirlikdə işçi qrupu yaradılıb, Ali Məclis Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsi ilə birlikdə hami təşkilatların təklifləri də nəzərə alınmaqla portalın funksional iş prinsipləri müəyyən edilib. Tərtib olunmuş alqoritmlər əsasında nazirliyin işçi qrupu tərəfindən proqram təminatı hazırlanıb. Portal, ümumilikdə, 20 moduldan və 9 verilənlər bazasından ibarətdir. Burada həm startapçılar, həm hami təşkilatlar, həm də investorlar üçün müvafiq imkanlar yaradılıb, bütün iş prosesinə mərkəzi nəzarət və idarəetmə mexanizmi qurulub. Həmçinin portalda rəsmi sənədlər, startap haqqında məlumatlar, startapçı olmaq üçün tələblər, layihələrin təqdimedilmə qaydaları və digər məlumat bölmələri nəzərdə tutulub. Burada qeydiyyatdan keçərək portalın aktiv istifadəçisi kimi forumların iştirakçısı olmaq, yeni layihəni təqdim etmək, məsləhət almaq, hami təşkilatların internet resurslarına keçid edib onlarla birbaşa interaktiv əlaqə yaratmaq, investor olmaq, hər hansı işin ən innovativ həlli və digər məsələlərlə bağlı imkanlar yaradılıb. Portalın arxivinin və bazalarının getdikcə genişlənəcəyi nəzərə alınaraq bu məqsədlə server alınıb, portala “*startup.nakhchivan.az*” domen adı verilib.

Rövşən Məmmədov çıxışının sonunda muxtar respublikada tələbələrin innovativ təşəbbüslərinin formalaşmasına göstərdiyi dəstəyə və yaradılan hərtərəfli şəraitə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

Sonra Rabitə və Yeni Texnologiyalar Nazirliyinin şöbə müdiri, işçi qrupunun üzvü Hüseyn Əsgərli internet portalının texniki imkanları barədə tədbir iştirakçılarına ətraflı məlumat verib.

Tədbir diskussiya şəraitində davam etdirilib, suallar cavablandırılıb və təkliflər səsləndirilib.

**Rauf KƏNGƏRLİ**

## Yeni texnikalar silahlanmaya qəbul edilib

*Əlahiddə Ümumqoşun Orduda mühəndis təminatı bölmələrinin texniki imkanları qardaş Türkiyə Respublikasının milli istehsalı olan texnikalarla gücləndirilir.*



“Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında hərbi maliyyə əməkdaşlığı haqqında Saziş”ə əsasən hərbi əməkdaşlığı daha da möhkəmləndirmək, Azərbaycan Ordusunun müasir dünya standartlarına uyğun inkişaf etməsinə töhfə vermək məqsədilə həyata keçirilən tədbirlər uğurla davam etdirilir. Bu tədbirlər çərçivəsində Əlahiddə Ümumqoşun Orduda mühəndis təminatı işinin daha da yaxşılaşdırılması məqsədilə yeni texnikaların ilk hissəsi silahlanmaya qəbul edilib. Qardaş Türkiyə Respublikasında istehsal edilən mini ekskavatorların ordunun təminatına daxil edilməsi hərbi əməkdaşlıq istiqamətində atılan mühüm addımlardan biridir.

Silahlanmaya qəbul edilən mühəndis texnikalarının yüksək texniki xüsusiyyətləri onların az vaxtda çox iş görməsinə imkan verir. Türkiyənin yerli istehsalı olan MST teleskopik yükləyiciləri bir çox üstünlüklərə malikdir. Həmin texnikalar həm də texniki xidmət xərclərinə və yanacağa qənaəti ilə seçilir. Qabaqcıl texnologiya və dünya standartlarına uyğun komponentlərdən ibarət bu texnikalar dəyişən hidravlik nasos və ikipilləli sürət qutusuna qoşulmuş hidromotoru sayəsində operatoru yüksək dartma və mükəmməl idarəetmə ilə təmin edir. Müxtəlif sənaye tətbiqləri üçün bütün ehtiyacları ödəyə bilən bu mini ekskavatorların üstün texnologiyası ən çətin coğrafi məkanlarda belə, asan istifadəyə imkan verir.

**Nəriman NƏCƏFOV**

# “Naxçıvan tarixi” dərsliyi muxtar respublikanın 95 illiyinə dəyərli töhfədir




*Naxçıvan Dövlət Texniki Kollecində Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyinin təşkilatçılığı ilə muxtar respublikanın ümumtəhsil məktəblərinin 7-ci siniflərində dərsdənkənar məşğələ üçün tədrisi nəzərdə tutulan “Naxçıvan tarixi” dərsliyinin təqdimat mərasimi keçirilib.*

Təhsil naziri Rəhman Məmmədov tədbirdəki çıxışında bildirib ki, qədim diyarımızın tarixi ilə əlaqədar müstəqillik illərinədək aparılan tədqiqatlarda keçmiş sovet ideologiyasına xas olan prinsiplər əsas götürülmüş, Naxçıvanın tarixi düzgün yazılmamış, elmdə boşluq yaranmışdı. Müstəqillik illərində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində qədim diyarımızın tarixinin öyrənilməsi istiqamətində mühüm işlər görülüb. Bu illər ərzində muxtar respublika tarixinin ayrı-ayrı dövrlərinə həsr olunan elmi simpozium və konfranslar keçirilib. Muxtar respublika ərazisindəki tarix və mədəniyyət abidələri pasportlaşdırılıb, mühüm elmi dəyərə malik kitablar, monoqrafiya, dərs vəsaiti, broşür, elmi məqalə və tezislər çap olunub, doktorluq və namizədlik dissertasiyaları müdafiə edilib.

Təhsil naziri qeyd edib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən 2019-2020-ci tədris ilindən muxtar respublikanın ümumtəhsil məktəblərinin 7-ci siniflərində Naxçıvan tarixinin dərsdənkənar məşğələ olaraq tədrisi nəzərdə tutulub. Tədrisin yüksək səviyyədə təşkili məqsədilə “Naxçıvan tarixi” üçcildliyi, eyni zamanda muxtar respublikada aparılan son elmi tədqiqatların nəticələri əsasında “Naxçıvan tarixi” dərsliyi hazırlanıb. Üç bölmədən ibarət olan kitabda 15-ə yaxın xəritə, arxeoloji tədqiqatlar zamanı aşkar edilən maddi mədəniyyət nümunələri, 50-dən çox fotoşəkil yerləşdirilib. Kitabda Naxçıvan tarixi xronoloji ardıcıllıqla, ayrı-ayrı mövzular şəklində verilib. Muxtar respublika ümumtəhsil məktəblərində qədim tariximizin tədrisi gələcəyimiz olan şagirdlərin milli özünüdərk, vətənpərvərlik, milli-mənəvi dəyərlər əsasında tərbiyə edilməsində mühüm rol oynayacaqdır. Muxtar respublikanın 95 illiyinə dəyərli töhfə olan yeni dərslik nəinki ümumtəhsil məktəblərinin müəllim və şagirdləri, eləcə də Naxçıvanın tarixi ilə maraqlananlar üçün faydalı mənbədir.



AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev tədbirdə çıxış edərək bildirib ki, Naxçıvanda elmi mühitin formalaşması, tarixinin daha dərindən öyrənilməsi bölmənin yaradılmasından sonra canlanıb. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev AMEA Naxçıvan Bölməsinin yaradılmasına həsr olunmuş müşavirədə iştirak etmiş, Naxçıvan tarixi ilə bağlı bölmə qarşısında çox ciddi vəzifə qoymuşdu. Bununla əlaqədar ümumiləşdirici əsərlər, kitab və monoqrafiyalar, elmi məqalələr yazılıb, elmi konfranslar keçirilib.

Akademik qeyd edib ki, “Naxçıvan tarixi” dərsliyi qədim diyarın tarixinin öyrənilməsi və onun gələcək nəsillərə çatdırılması istiqamətində görülən işlərin tərkib hissəsidir. Kitab Naxçıvan şəhərindəki orta məktəblərdə çalışan beş tarix müəllimi tərəfindən qədim yurdumuzda aparılan genişmiqyaslı tədqiqatlara əsaslanaraq yazılıb. Tədris vəsaitində Naxçıvanın ən qədim zamanlardan müasir günümüzədək olan tarixi haqqında yığcam məlumat verilib.

Tədbirdə AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərlinin, “Naxçıvan tarixi” dərsliyinin müəllifləri – Həsən Həsənov, Təhminə İbrahimova, Aytəkin Məmmədova və Xülya Seyidzadənin çıxışları dinlənilib. Çıxışlarda yeni dərsliyin elmi əhəmiyyətindən danışılıb, tədris prosesinin təşkilində müəllimlər üçün dəyərli mənbə olacağı qeyd edilib. Kitabda Naxçıvanın yerləşdiyi tarixi ərazi, təbii-coğrafi xüsusiyyətləri, adının etimologiyası, ictimai tarixi, Azərbaycanın qədim dövlətçilik ənənələrində, siyasi-iqtisadi və mədəni həyatındakı yeri işıqlandırılıb.

Çıxış edənlər “Naxçıvan tarixi” dərsliyinin ərsəyə gəlməsi və nəşrinə göstərdiyi dəstəyə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildiriblər.

Sonda dərsliyin müəlliflərinə Təhsil Nazirliyinin diplomu və “Naxçıvan tarixi” dərsliyi təqdim olunub.

**Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti**

# İcbari tibbi sığorta: Bu, həmrəyliyə əsaslanan tibbi xidmətlər modelidir

## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin gənc kollektivi bu fikirdədir

Səhiyyə sisteminin inkişafı, vətəndaşlara keyfiyyətli tibbi xidmətin göstərilməsi dövlətin həyata keçirdiyi sosial siyasətin təməl prinsiplərindəndir. Bu sahəyə əhəmiyyətli sərmayə qoyuluşu, səhiyyədə texnoloji innovasiyaların və müasir müayinə-müalicə üsullarının tətbiqi ölkəmizdə yüksəkkeyfiyyətli tibbi xidmətlərin göstərilməsinə imkan yaradıb. Əhalinin artmaqda olan tibbi xidmət ehtiyaclarını qarşılamaq və səhiyyənin uzunmüddətli inkişafına nail olmaq məqsədilə bu sahədə dayanıqlı maliyyə mənbələrinin formalaşdırılması və mövcud resursların daha səmərəli istifadəsi tələb olunur. Bütün bunların nəticəsi olaraq ölkədə bir neçə ildir, tətbiqinə başlanılan icbari tibbi sığorta, təbii ki, əhalinin sağlamlığına hesablanmış tədbirlər insan amilinə verilən dəyərdir.

Muxtar respublikamızda da səhiyyə sahəsi daim milli sosialyönümlü siyasətin prioritetləri arasında mühüm yer tutub. Ali Məclis Sədrinin bu sahənin inkişafı ilə bağlı yürütdüyü məqsədyönlü siyasət səhiyyənin keyfiyyət və kəmiyyət göstəricilərinin qürur duyulacaq dərəcədə artması ilə müşayiət olunur. 2017-ci ildən muxtar respublikada bir çox ölkələrin səhiyyə sistemində geniş şəkildə istifadə edilən icbari tibbi sığortanın tətbiqinə başlanılması isə bu sahəyə göstərilən qayğının daha bir bariz nümunəsidir. Sağlam gələcəyə hesablanmış bu böyük və məsuliyyətli işin həyata keçirilməsi üçün Ali Məclis Sədrinin fərmanı ilə yaradılan Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin əməkdaşları ilə görüşüb görülən işlər, perspektiv planlar barədə söhbətləşmək üçün həmin quruma yollanıram.

### *Gənc qurumun gənc işçi heyəti*

İlk tanışlıqdan bəlli olur ki, agentliyə, əsasən, gənc mütəxəssislər cəlb olunub. Bu, çox maraqlı və sevindiricidir. Təbii ki, bir millətin mövcudluğunu və inkişafını onun sağlam gəncliyinin olması şərtləndirir. Hər bir ölkədə dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndirilməsi, gələcəyin etibarlı təminatı intellektual səviyyəli kadrların yetişdirilməsindən, onların aparıcı qüvvəyə çevrilməsindən çox asılıdır. Gənclər hər bir xalqın ayıq-sayıq və ən itigörən gözü, ümumiyyətlə, tarixin bütün dövrlərində inkişafın hərəkətverici qüvvəsi olub. Sağlam və intellektual gənc nəslin yetişdirilməsi dövlətin, xalqın əsas strateji hədəflərindən sayılıb. ***"Siz Azərbaycanın bu günü və gələcəyisiniz. Sizin üzərinizə böyük vəzifələr düşür, bu vəzifələr gələcəkdə daha da böyük olacaqdır. Siz, müstəqil Azərbaycanın XXI əsrdə yaradanlarısınız, quranlarısınız, inkişaf etdirənlərisiniz. Biz müstəqil Azərbaycanın taleyini gələcəkdə sizə etibar edəcəyik, sizə tapşıracağıq"***, – deyərək Azərbaycan gəncliyinə etimad göstərən ümummilli lider Heydər Əliyevin bu fikirlərinə sadiq olan gənc nəsil cəmiyyətimizin inkişafında fəal sosial təbəqəyə çevrilib. Son illər muxtar respublikamızda təhsilin inkişafına dair yeni fərman və sərəncamların imzalanmasının, maddi-texniki bazanın möhkəmləndirilməsinin, gənclər siyasəti sahəsində görülən işlərin, həyata keçirilən tədbirlərin nəticəsidir ki, bu gün naxçıvanlı gənclər öz intellektual səviyyələri, bilik, bacarıqları ilə nəinki ölkədə, ümumiyyətlə, dünyada tanınır və qəbul olunurlar. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncamı isə təhsilə fərqli yanaşma mexanizmini formalaşdırmaqla yanaşı, dövlət kadr siyasətinin də inkişafına səbəb olmuşdur. Gənclərin yüksək vəzifələrə irəli çəkilməsi, ictimai işlərdə fəallıqlarının artırılması və bunların effektiv nəticəsi bir çox ilklərə imza atan Naxçıvan modellərindən biridir.

Bu gün muxtar respublikamızda icbari tibbi sığorta kimi həyati əhəmiyyətli işin gənclərə tapşırılması onlara olan etimad və inamın göstəricisidir. Ölkə üzrə icbari tibbi sığortanın tətbiqinə hazırlaşdığımız bir dövrdə naxçıvanlı gənclərin həyata keçirdikləri işlər yaxın gələcəkdə bu sahədə də uğurlu Naxçıvan modeli yarada bilər.

Agentlikdə 2 şöbə – İcbari tibbi sığorta işinin təşkili, Səhiyyə və sosial-iqtisadi təhlil şöbələri və 1 sektor – Maliyyə-təsərrüfat sektoru fəaliyyət göstərir.

### *Hər kəs iş başında*

Səhərdir. İş vaxtı yenicə başlayıb. Gənclik ab-havası, təravəti, aktivliyi duyulan agentlikdə hər kəs iş başındadır. İlk olaraq buradakı gənclərin agentliyin "sütunu" adlandırdıqları İcbari tibbi sığorta işinin təşkili şöbəsi ilə tanış oluram. *Şöbə müdiri Vüsal Məmmədov* bildirir ki, burada çalışan işçilər



ixtisasca iqtisadçıdırlar: "Əsas işimiz vətəndaşlara veriləcək icbari tibbi sığorta paketinin hazırlanması, onların analizi, monitorinqi və gələcəkdə hansı təminatları daha geniş şəkildə əhatə edə biləcəyimizi təhlil etməkdən ibarətdir. Hazırda şöbəmizdə çalışan əməkdaşların hamısı icbari tibbi sığorta sahəsində təcrübə qazanmış gənclərdir". Vüsal müəllimin sözlərinə görə, muxtar respublikada icbari tibbi sığorta tam tətbiq olunduqdan sonra səhiyyə strukturlarının, tibb müəssisələrinin ödəniş sistemində dəyişikliklər baş verəcək. Onun rəhbərlik etdiyi şöbə də elə yeni ödəniş mexanizmlərini və onun tətbiqi imkanlarını araşdırır. Məsələlərin həlli üçün Səhiyyə Nazirliyi ilə sıx əlaqə saxlanılır. Əsas hədəflərdən biri aztəminatlı ailələrlə bağlı olan xidmətləri də sığorta paketinə daxil etməkdir. Bunun üçün maliyyə hesabatları hazırlanır.

Vüsal müəllim qeyd edir ki, tibbi sığortayla bağlı monitorinqlər aparıldıqda muxtar respublikada riski yüksək olan xəstəliklər araşdırılır. Xəstəliyin ilkin mərhələdə aşkar olunması vətəndaşlar üçün də faydalıdır. Çünki belə xəstələr müalicəyə daha tez cəlb olunacaq. Bu zaman xərclər azalacaq, vətəndaş daha effektiv müalicə alacaq. Ona görə hazırda monitorinqlər, əsasən, bu istiqamətdə aparılır.

İcbari tibbi sığortanın əsas şərtlərindən biri ilkin olaraq icbari tibbi sığorta proqramından istifadə etmək istəyən vətəndaşın tibbi sığorta müqaviləsi bağlamasıdır. Bu müqavilə bağlandıqdan sonra vətəndaşa tibbi sığorta şəhadətnaməsi təqdim olunur. Bir məsələni xüsusilə qeyd edim ki, sığorta şəhadətnaməsi şəxsiyyət vəsiqəsi ilə birlikdə təqdim edildikdə etibarlıdır. Vətəndaş tibb mərkəzinə müraciəti zamanı şəxsiyyət vəsiqəsi ilə birlikdə şəhadətnaməni təqdim edərək icbari tibbi sığorta proqramına uyğun müayinə və müalicə oluna bilər. Agentlik tibbi xidmətin alıcısı olduğundan dövlət səhiyyə sisteminə daxil olan tibb müəssisələri qarşısında tələblər olacaq. Əlbəttə ki, vətəndaşlara yüksəkkeyfiyyətli tibbi xidmətin göstərilməsi və operativlik əsas tələblərdir. Bu məqsədlə də agentliyin Sədərək, Şərur və Kəngərli rayonlarının xəstəxanalarında, həmçinin icbari tibbi sığortanın tətbiqində iştirak edən digər xəstəxanalarda – "Naxçıvan Diaqnostika Müalicə Mərkəzi" publik hüquqi şəxsi, Naxçıvan Muxtar Respublika Xəstəxanası, Naxçıvan Muxtar Respublikası Kardioloji Mərkəzi, Əziz Əliyev adına Naxçıvan Muxtar Respublika Mərkəzi Uşaq Xəstəxanası və Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzində qeydiyyat məntəqələri yaradılmışdır. Sığortaolunan vətəndaşların qəbulu, qeydiyyatı aparılır. İcbari tibbi sığortanın tətbiq edildiyi rayonların xəstəxanalarında həyata keçirilə bilməyən tibbi xidmətlər olduqda sığortaolunanlar göndəriş əsasında icbari tibbi sığortanın tətbiq edildiyi digər xəstəxanalara yönləndirilir. Bu zaman agentliyin müvafiq xəstəxanalardakı qeydiyyat məntəqələrinin qeydiyyatçıları xəstələri qəbul edir, göndərişə uyğun olaraq tibbi xidmətin icrası üçün müvafiq sahəyə yönləndirirlər.

Agentliyin ən böyük şöbəsi olan Səhiyyə və sosial-iqtisadi təhlil şöbəsində çalışan əməkdaşlar ölkəmizin qabaqcıl ali təhsil müəssisələrində təhsil almış gənclərdir. Şöbənin əməkdaşları səhiyyə sahəsində olan iqtisadi, sosial və tiblə bağlı bəzi statistik məlumatları toplayıb təhlil edir, icbari tibbi sığortanın tətbiqi ilə bağlı sənədlərin hazırlanması üçün araşdırma aparırlar. Şöbənin aparıcı məsləhətçisi *Ülviyyə Babayeva* qeyd edir ki, indiyə qədər muxtar respublikada icbari tibbi sığorta sisteminin keçmiş təcrübəsinin olmadığı üçün şöbədə, əsasən, həkim və iqtisadçıların birgə fəaliyyət göstərə bilmələri üçün şərait yaradılmışdır. Bununla da şöbə əməkdaşları tərəfindən beynəlxalq təcrübələr öyrənilir və bu təcrübələr muxtar respublika şərtlərinə uyğunlaşdırılaraq icbari tibbi sığortanın tətbiqi ilə bağlı lazımi məlumat bazası formalaşdırılır.



İcbari tibbi sığorta sahəsində qanunvericilik bazasının öyrənilməsi və araşdırılması prosesini isə agentliyin hüquqşünası həyata keçirir. *Taleh Bağırov* bildirir ki, onun tərəfindən qanunvericilik aktlarının təkmilləşdirilməsinə dair təkliflər təhlil edilir və bu sahədə mövcud beynəlxalq təcrübə öyrənilir. Bildiyimiz kimi, tibbi sığorta haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanunundan, Azərbaycan Respublikasının Mülki Məcəlləsindən, "Sığorta fəaliyyəti haqqında", "İcbari sığortalar haqqında" qanunlardan, digər normativ-hüquqi aktlardan və ölkəmizin tərəfdar çıxdığı dövlətlərarası müqavilələrdən ibarətdir. Bu sahədə ən başlıca rolu "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu oynayır. Bu qanun əhalinin tibbi sığortasının təşkilati, hüquqi və iqtisadi əsaslarını müəyyən edir, eyni zamanda tibbi sığortanın subyektləri arasındakı münasibətləri tənzimləyir. İcbari tibbi sığortanın tətbiq edilməsi işində agentlik bu günə kimi muxtar respublika rəhbərliyinin tapşırıq və göstərişlərinə əsasən müvafiq qanunvericilik çərçivəsində fəaliyyət göstərmiş və hazırda da bu proses yüksək həssaslıqla davam etdirilməkdədir. Belə ki, bu günə kimi qanunvericiliyin tələbləri əsasında tibb təchizatçıları və sığortaolunanlarla müqavilələr bağlanılmış, eyni zamanda həmin müqavilələrdə qeyd olunan tələblərə mütəmadi əməl olunması üçün zəruri tədbirlər görülmüşdür.



Maliyyə-təsərrüfat sektoruna da baş çəkirəm. Sektor müdiri *Nicat Əsgərov*la maraqlı



söhbətimdən sonra bu qənaətə gəlirəm ki, onlar icbari tibbi sığortanın səhiyyə sisteminin dayanıqlı inkişafı və tibbi xidmətin maliyyələşdirilməsi məqsədilə maliyyə hesabatlarının hazırlanması ilə intensiv təhlillər və müzakirələr aparırlar.

Sektorun ümumi işlər üzrə baş məsləhətçisi *Çilənay Qurbanlı* deyir ki, əsas fəaliyyətləri agentliyin kargüzarlığının aparılması, sənədlərin qeydiyyatı ilə yanaşı, insan resurslarını düzgün idarəetmə siyasətinin həyata keçirilməsi, yüksək keyfiyyətin əldə edilməsi üçün ən mühüm amil olan professional heyətin seçilməsi, onların inkişaf etdirilməsi və agentlik daxilində karyeralarının qurulmasını təmin etməkdir. Şöbənin əsas məqsədi sənədləşmə və digər əməliyyatların aparılmasında təkcə xidmət təminatçısı kimi yox, agentliyin dəyərlərinə, missiyasına sadiq olaraq digər şöbələrə, eləcə də bütün heyətə strateji tərəfdaş olmaqdır.



### *Muxtar respublikamızda icbari tibbi sığortanın tətbiqi mərhələli şəkildə və yüksək səviyyədə davam etdirilir*

Vətəndaşların mənafeyinə yönəlmiş, onların keyfiyyətli tibbi xidmət və dərmanlarla təmin olunmasına yardım edən icbari tibbi sığortanın tətbiqi artıq bir neçə ildir ki, muxtar respublikamızda mərhələli şəkildə və yüksək səviyyədə davam etdirilir. Bu barədə agentliyin Səhiyyə və sosial-iqtisadi təhlil şöbəsinin baş məsləhətçisi *Nazəni Rüstəmli* ilə ətraflı söhbət edirəm. O deyir ki, muxtar respublikada icbari tibbi sığortanın ilk olaraq Sədərək rayonunda tətbiqi məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri "Sədərək rayonunda icbari tibbi sığortanın tətbiqi ilə bağlı tədbirlər haqqında" 2017-ci il 3 may tarixli Fərman və "Sədərək rayonunda icbari tibbi sığortanın tətbiqinə dair tədbirlər planı"nın təsdiq edilməsi haqqında" 2017-ci il 31 may tarixli Sərəncam imzalamışdır. Buna uyğun olaraq agentlik tərəfindən 1 iyul 2017-ci il tarixdən həmin rayonda icbari tibbi sığortanın tətbiqinə başlanılmışdır.



İcbari tibbi sığortanın uğurlu tətbiqi məqsədilə Sədərək Rayon Mərkəzi Xəstəxanasında yenidənqurma işləri aparılmış, ən müasir texnoloji yenilikləri özündə birləşdirən tibbi cihaz və avadanlıqlar alınaraq quraşdırılmış, "Səhiyyə İnformasiya İdarəetmə Sistemi" qurulmuş və vahid məlumat bazasının idarə edilməsi üçün server otağı təşkil edilmişdir.

Sədərəkdən sonra icbari tibbi sığortanın tətbiq edildiyi növbəti rayon Şərur olmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Şərur rayonunda icbari tibbi sığortanın tətbiqi ilə bağlı tədbirlər haqqında" 2019-cu il 25 yanvar tarixli Sərəncamına uyğun olaraq 1 iyun 2019-cu il tarixdən Şərur rayonunda da icbari tibbi sığortanın tətbiqinə başlanılmışdır. Bu istiqamətdə də bir sıra uğurlu islahatlar həyata keçirilmişdir. Həmçinin icbari tibbi sığortanın tətbiqi ilə bağlı müvafiq fərman və sərəncamların icrasına uyğun olaraq Sədərək, Şərur Rayon Mərkəzi xəstəxanalarına və Şərur Rayon Uşaq Xəstəxanasına publik hüquqi şəxs statusu verilmiş və tibb işçilərinin əməkhaqları əhəmiyyətli dərəcədə artırılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Kəngərli rayonunda icbari tibbi sığortanın tətbiqi ilə bağlı tədbirlər haqqında" 2019-cu il 5 iyul tarixli Sərəncamına uyğun olaraq 1 avqust 2019-cu il tarixdən Kəngərli rayonu da icbari tibbi sığortanın tətbiq edildiyi rayonlar sırasına daxil olmuşdur. Keçən dövr ərzində Sədərək və Şərur rayonlarında icbari tibbi sığortanın tətbiqi ilə əlaqədar əldə olunmuş uğurlu nəticələrə əsasən icbari tibbi sığortanın əhatə dairəsinin genişləndirilərək Kəngərli rayonunda da tətbiqi ilə bağlı verilən tapşırıqlara uyğun olaraq bir sıra işlər həyata keçirilmişdir. Bu məqsədlə Kəngərli Rayon Mərkəzi Xəstəxanası da publik hüquqi şəxs statusu almış, həmçinin burada "Səhiyyə İnformasiya İdarəetmə Sistemi" qurulmuş və agentliyin qeydiyyat məntəqəsi yaradılmışdır.

İcbari tibbi sığortanın tətbiqindən bu günədək agentlik tərəfindən əhali arasında icbari tibbi sığorta və səhiyyə maarifləndirilməsinin aparılması məqsədilə ehtiyac olan məlumatları özündə əks etdirən müxtəlif broşürlər, məlumat kitabçaları və qısametrajlı videoçarxlar hazırlanmışdır. Həmçinin səhiyyə işçilərinin biliyinin daha da artırılması məqsədilə müayinə və müalicə protokolları tərtib edilmişdir.

### *İcbari tibbi sığortanın növbəti ünvanı – Şahbuz rayonu*

5 iyul 2019-cu il tarixdə Kəngərli rayonunda icbari tibbi sığortanın tətbiqi ilə bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin rəhbərliyi ilə keçirilən müşavirədə Ali Məclisin Sədri əldə olunmuş uğurlu nəticələrə əsasən icbari tibbi sığortanın əhatə dairəsinin genişləndirilərək Şahbuz rayonunda da tətbiq edilməsi barədə tapşırıq vermişdir. Bəli, vətəndaşların mənafeyinə yönəlmiş, onların keyfiyyətli tibbi xidmətlə təmin olunmasına yardım edən bir sistemin tətbiq olunacağı növbəti ünvan Şahbuz rayonudur. İcbari tibbi sığortanı həmrəyliyə əsaslanan tibbi xidmətlər modeli hesab edən kollektiv tərəfindən bu sahədə hazırlıq işləri başa çatıb.

### *Təəssürat…*

Bir gün ərzində bu gənc kollektivin müasir və innovativ düşüncəli, rəngarəng ideyalı üzvləri ilə söhbətim hardansa oxuduğum maraqlı fikirləri mənə xatırladır. Deyirlər, illərlə bir yerdə işləyir və yaşayırsınızsa, çalışın, işə eyni yolla getməyəsiniz. Əgər eyni yolla gedirsinizsə, deməli, hər gün beyninizdəki neyron yollardan eynisini işlədirsiniz. Yəni həmişə eyni cür etdiyimiz şeyləri başqa cür etmək çox hallarda hansısa uğurun başlanğıcı ola bilir. Bu hər sahəyə aiddir. Bəli, illər öncə muxtar respublikamızda bir çox stereotiplərin atılıb müasir innovasiyalara qədəm qoyulması, gələcək inkişaf və tərəqqiyə hesablanmış çoxşaxəli proqramların həyata keçirilməsi böyük uğurların möhürü olmaqla yanaşı, yuxarıda da qeyd etdiyim kimi, həm də Naxçıvan nümunəsi kimi formalaşmışdır. İcbari tibbi sığorta sahəsində görülən işlər də qısa zamanın böyük uğurlarındandır. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin yaradılması, bu sahəyə göstərilən diqqət və qayğı, tibbi sığorta sahəsində qazanılmış təcrübə, əldə edilmiş uğurlu nailiyyətlər sayəsində bu gün qürurla demək olar ki, muxtar respublikamız Ali Məclis Sədrinin 2019-cu il 18 mart tarixli Fərmanı ilə icbari tibbi sığortanın tətbiqinə tamamilə hazırdır.

✍ **Mətanət MƏMMƏDOVA**

# Seçki marafonu

**Bələdiyyə seçkiləri – 2019**

**23 dekabr 2019-cu il Azərbaycan Respublikasında bələdiyyə seçkiləri günüdür.**

**Hörmətli seçicilər**

**Azərbaycan Respublikasının Seçki Məcəlləsinə müvafiq olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası tərəfindən növbəti bələdiyyə seçkiləri 23 dekabr 2019-cu il tarixə təyin olunmuş və Seçki Məcəlləsinin 213.2-ci maddəsinə uyğun olaraq 19 oktyabr 2019-cu il tarixdə "Azərbaycan" qəzetində dərc olunmuşdur.**

Azərbaycan Respublikasında yerli özünüidarəni həyata keçirən bələdiyyələrin üzvləri nisbi çoxluq sistemi əsasında çoxmandatlı seçki dairələri üzrə seçilirlər.

**Seçki əraziləri üzrə aşağıdakı sayda bələdiyyə üzvləri seçilir:**

Əhalisi 500-dən az olan ərazilərdə – 5 bələdiyyə üzvü;

əhalisi 500-dən 999-dək olan ərazilərdə – 7 bələdiyyə üzvü;

əhalisi 1000-dən 4.999-dək olan ərazilərdə – 9 bələdiyyə üzvü;

əhalisi 5000-dən 9.999-dək olan ərazilərdə – 11 bələdiyyə üzvü;

əhalisi 10000-dən 19.999-dək olan ərazilərdə – 13 bələdiyyə üzvü;

əhalisi 20000-dən 49.999-dək olan ərazilərdə – 15 bələdiyyə üzvü;

əhalisi 50000-dən 99.999-dək olan ərazilərdə – 17 bələdiyyə üzvü;

əhalisi 100000-dən 299.999-dək olan ərazilərdə – 19 bələdiyyə üzvü.

**Naxçıvan Muxtar Respublikası üzrə 170 bələdiyyəyə 1452 nəfər üzv seçiləcəkdir.**

Bələdiyyələrin səlahiyyət müddəti 5 ildir. Bələdiyyələrin səlahiyyət müddətinin hesablanması səsvermənin keçirildiyi gündən başlanır və yeni seçilən bələdiyyələrin birinci iclas günü başa çatır. Bələdiyyə üzvlərinin səlahiyyətləri yalnız bələdiyyənin səlahiyyət müddətində qüvvədədir.

**Seçkilərdə iştirak etmək hüququna malik olan və müvafiq seçki dairəsində daimi yaşayan Azərbaycan Respublikasının vətəndaşları bələdiyyələrə üzv seçilə bilərlər.**

İrqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və başqa ictimai birliklərə mənsubiyyətindən və ya digər statusundan asılı olmayaraq, Azərbaycan Respublikası vətəndaşları seçmək, seçilmək və referendumda iştirak etmək hüququ vardır.

Vətəndaşların seçkidə iştirak hüquqlarının həyata keçirilməsinə maneolma, vətəndaşı namizədin lehinə imza atmağa məcburetmə və ya onun səs verməsinə maneolma, seçki komissiyalarının işinə müdaxiləetmə və ya təsirgöstərmə, seçki sənədlərinin saxtalaşdırılması və ya saxta sənədlərin təqdim edilməsi, bilə-bilə səslərin düzgün hesablanmaması, səsvermənin nəticələrinin düzgün müəyyənləşdirilməməsi və ya səsvermənin gizliliyinin pozulması, başqa şəxslərin yerinə səs verilməsi, bir şəxs tərəfindən seçki qutusuna birdən artıq seçki bülleteninin salınması, seçkinin nəticələrinə təsir məqsədilə vəzifə səlahiyyətlərindən sui-istifadə edilməsi Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulmuş məsuliyyətə səbəb olur.

**Bələdiyyə üzvlüyünə namizədlərin irəli sürülməsi qaydası**

Seçki dairəsi üzrə bələdiyyə üzvlüyünə namizədləri siyasi partiyalar, siyasi partiyaların blokları, həmin seçki dairəsində daimi yaşayan seçki hüququ olan Azərbaycan Respublikasının vətəndaşları irəli sürə bilərlər.

Bələdiyyələrə təkrar və əlavə seçkilərdə bələdiyyə üzvlüyünə namizədlər bu seçkilərin təyin edilməsi haqqında qərar rəsmi dərc olunduqdan sonra irəli sürülür.

İrəli sürülən namizəd yalnız bir bələdiyyəyə namizəd irəli sürülməsinə razılıq verə bilər.

Bələdiyyə üzvlüyünə namizədlərin irəli sürülməsinədək dairə seçki komissiyasının yaradılması başa çatmayıbsa, namizədin irəli sürülməsi haqqında bildiriş, müvafiq namizədlərin razılıq ərizələri və digər sənədlər Mərkəzi Seçki Komissiyasına göndərilir. Mərkəzi Seçki Komissiyası göstərilən sənədləri dairə seçki komissiyasının təşkilindən və sədrinin seçilməsindən sonra ona təqdim edir.

**Namizədin müdafiəsi üçün onun irəli sürüldüyü seçki dairəsinin ərazisində seçicilərin imzaları toplanmalıdır.**

**Bələdiyyə üzvlüyünə namizədin müdafiəsi üçün seçici imzalarının toplanması qaydası**

Müvafiq seçki ərazisi üzrə bələdiyyə üzvlüyünə namizəd kimi qeydə alınmaq üçün namizədliyi irəli sürülmüş hər bir vətəndaş:

əhalisi 99.999-dan çox olan ərazidə – 150 seçici imzası;

əhalisi 49.999-dan çox olan ərazidə – 100 seçici imzası;

əhalisi 19.999-dan çox olan ərazidə – 75 seçici imzası;

əhalisi 9.999-dan çox olan ərazidə – 50 seçici imzası;

əhalisi 4.999-dan çox olan ərazidə – 30 seçici imzası;

əhalisi 4.999-dan az olan ərazidə – 15 seçici imzası toplamalıdır.

**Namizədlərin öz təşəbbüsü ilə və ya bilavasitə seçicilər tərəfindən irəli sürülməsi**

Namizəd öz təşəbbüsü ilə və ya aktiv seçki hüququ olan seçicilər tərəfindən irəli sürülə bilər, o şərtlə ki, ərazisində namizədin dəstəklənməsi üçün zəruri olan imzaların yığıldığı və namizədin qeydə alınmasının nəzərdə tutulduğu müvafiq seçki komissiyasına bu barədə bildiriş göndərilsin.

**Bələdiyyə üzvlüyünə namizəd yalnız bir bələdiyyə üzvlüyünə namizəd kimi irəli sürülə və qeydiyyata alına bilər.**

Namizəd və ya namizədi irəli sürən seçicilərin təşəbbüs qrupu öz təşəbbüsü barədə müvafiq seçki komissiyasına yazılı bildiriş verir. Bildirişdə namizədi irəli sürən hər bir təşəbbüsçünün və namizədin soyadı, adı, atasının adı, doğum tarixi, yaşayış yerinin ünvanı, şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriya və nömrəsi, bundan başqa, irəli sürülən namizədin əsas iş və ya xidmət yeri, tutduğu vəzifə (bu olmadıqda – fəaliyyət növü) göstərilməlidir.

**Bütün namizədlər bərabər hüquqa malikdirlər və bərabər öhdəliklər daşıyırlar.**

Bildirişlə birlikdə namizədin seçkili dövlət və ya bələdiyyə orqanında seçkili vəzifəyə seçiləcəyi halda həmin vəzifə ilə uzlaşmayan fəaliyyətə xitam verəcəyinə dair yazılı öhdəliyi olan ərizə də göndərilir. Bu ərizədə onun tərcümeyi-halına aid məlumatlar (soyadı, adı, atasının adı, doğum tarixi, yaşayış yerinin ünvanı, təhsili, əsas iş və ya xidmət yeri (bu olmadıqda – fəaliyyət növü)) göstərilir. Namizədlərin ödənilməmiş və ya üzərindən götürülməmiş məhkumluğu olduqda, ərizədə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddəsinin adı və nömrəsi, namizədin xarici ölkədə cinayət məsuliyyəti yaradan əməli olmuşdursa və bu haqda qanuni qüvvəyə minmiş məhkəmə hökmü çıxarılmışdırsa və bu əməl Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulan cinayət məsuliyyəti yaradırsa, xarici ölkənin müvafiq qanununun adı göstərilməlidir. Namizədin ərizəsində Azərbaycan Respublikasının vətəndaşlığı haqqında məlumatla yanaşı, xarici ölkə vətəndaşlığının və başqa ölkələr qarşısında öhdəliklərinin olub-olmaması da göstərilməlidir.

***Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası***

## Olimpiadanın üç turundan ikisində qələbə qazanılıb

*16 yaşa qədər şahmatçıların Dünya Şahmat Olimpiadasında artıq üç tur geridə qalıb.*



İlk turda "Azərbaycan-Naxçıvan" komandası qazaxıstanlı şahmatçılarla qarşılaşıb və məğlub olublar. İkinci turda isə komandamız üçün uğurlu alınıb. Bu turda Xəzər Babazadə, Sadiq Məmmədov, Sadiq Qarayev və Ərturanlı İsmayılovdan ibarət yığmamız Tailand komandası ilə qarşılaşıb və 3,5-0,5 hesabı ilə qalib gəlib.

Növbəti turda komandamızın rəqibi Türkiyənin qızlardan ibarət millisi olub. Şahmatçılarımız bu turda 3:1 hesabı ilə qalib gəliblər. Hazırda komandamız qazandığı qələbələrin sayına görə 48 komanda arasında 18-ci pillədə qərarlaşıb.

## İdmançımızdan bürünc medal

Bakı şəhəri "Elektra Events Hall"da bikini fitness və mens fizik üzrə Azərbaycan Kuboku, klassik bodibildinq və bodibildinq üzrə Azərbaycan çempionatı keçirilib.

Çempionatda Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin nəzdində fəaliyyət göstərən Şərur rayon ağır atletika bölməsinin üzvü Hakim İsayev də iştirak edib. İdmançımız uğurlu nəticə göstərərək bürünc medal qazanıb.

Sonda idmançımız təşkilatçılar tərəfindən diplom, medal və kubokla təltif edilib.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## "Ailə təsərrüfatı məhsulları" festivalı keçiriləcək



*Noyabrın 2 və 3-də "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində növbəti "Ailə təsərrüfatı məhsulları" festivalı keçiriləcək.*

Festivalın açılışı noyabrın 2-də saat 11[00]-da olacaq. Festivala Naxçıvan şəhəri və muxtar respublikanın bütün rayonları üzrə, ümumilikdə, 408 ailə təsərrüfatı tərəfindən 34 min 774 ədəd müxtəlif növ qablaşdırılmış məhsul çıxarılacaq. Ailə təsərrüfatlarının festivalda iştirakının təmin olunması, məhsullarının ayrı-ayrı pavilyonlarda sərgilənməsi üçün hər cür şərait yaradılacaq. Festivalda əl işlərinin sərgi-satışı da həyata keçiriləcək. Festival zamanı ailə təsərrüfatçıları arasında "Aktiv ailə təsərrüfatı" müsabiqəsi təşkil ediləcək, qaliblərə diplomlar və hədiyyələr təqdim olunacaq.

"Ailə təsərrüfatları ili"nə təsadüf etməsi ilə xüsusi əhəmiyyət kəsb edən builki "Ailə təsərrüfatı məhsulları" festivalı özünün rəngarəngliyi və müxtəlifliyi ilə seçiləcək, iştirakçılara maraqlı konsert proqramı təqdim olunacaq.

***Xəbərlər şöbəsi***

## Payız rəngləri

*(esse)*



Soyuq günlərə doğru yaxınlaşdıqca yaxında dərin qış yuxusuna dalacaq uca dağların sinəsindəki payız, sanki ondan küsərək daha günəyə üz tutmuş Günəşin acığına iki-üç deyil, dörd, beş, bəzən də altı rəngə boyanmaqla qızılı-sarıdan tutmuş bəyaza, yaşıldan maviyədək hər kəsin könlünü oxşayır. Dili olmasa da, Dərələyəzin sərin mehinin pıçıltısı və özünəxas çalarları ilə insanı başdan-başa qoyan bu payız rənglərinin boz yamaclardakı ürkək kəklikləri qaqqıltısıtək həzin bir nəğməsi də var.

Bəzən az qala barmaqları donduran ağappaq qar sızıltısı ilə şıltaqlıq etsə də, bir dəqiqə sonra yenidən ılıq yaz günlərindəki ilk sevgisinin hərarəti ilə: Gəl barışaq, – deyir yaşıl rəng. Onun ilboyu boğçasında bəsləyib, hamıdan gizli saxladığı al qırmızı bir hədiyyəsi də var. Birbirindən dəcəl, uzunsaçlı sarışın nəvələrin bal yanaqları qədər şirin olan bu gözəl rəngin dadından kim doyar ki?! Həmişə sonsuz ümman təki göylərin əlçatmaz sahibinə pənah gətirib, Vətəninin aydın səması, övladlarının xoşbəxtliyi üçün dualar edən nənənin çox sevdiyi qızılı-sarı isə: Bax, mən payızın lap özüyəm, – deyərək ilk yarpaq tökən tumurcuqlarda gecikmiş məhəbbətini axtarır, sanki.



Bir tənha ağac kimi soyuq küləklər onu bəzən üşütsə də, bu yamaclarda bir-birinə sığınıb sıx məskən salmış tünd-yaşıl yemişan kollarının məzəmmətindən utanırcasına o, hələ də başını dik tutub sərt çovğunları gözləyəcək. Həmin gün göydən ələnən qızıl yağışı kimi bütün yarpaqlarını ilboyu şirə çəkdiyi torpağa döşəyib qışın fırtınalarına dözəcək. Hələlik isə qalın qar buludlarının gəlməsini gözləyən mavi səmanın dərinliyindən səssizcə yola düşən qızılı payıza əlvida deyir.

*Gələn yaza nə qaldı ki!*

✍ **Əli CABBAROV**


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Pərviz Hacılı

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Ədəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1495. Sifariş № 748